# Kitabın içindəkilər


Nənə ... 7

Möcüzəvi plan ... 19

Corc dərmanı hazırlamağa başlayır ... 24

Heyvanlar üçün dərmanlar ... 33

Biş-düş ... 39

Qəhvəyi boya ... 42

Nənə dərman qəbul edir ... 45

Qəhvəyi toyuq ... 56

Donuz, buzovlar, qoyunlar, poni və keçi ... 65

Nənə üçün qaldırıcı kran ... 75

Cənab Psixlinin dahiyanə ideyası ... 79

Sehrli dərman nömrə iki ... 85

Sehrli dərman nömrə üç ... 91

Sehrli dərman nömrə dörd ... 95

Əlvida, Nənəcan! ... 98

OXUCULARA XƏBƏRDARLIQ:

**Corcun "sehrli dərmanı"nı ev şəraitində hazırlamağa cəhd etməyin.**

# Bu, təhlükəsiz deyil!

# NƏNƏ

– Mən alış-veriş üçün kəndə gedirəm, – anası şənbə günü səhər dedi. Sən isə ağıllı oğlan ol, özünü yaxşı apar, hoqqa çıxarmağı düşünmə.

Əslində, oğlan uşaqlarına bunu demək ağıllı fikir deyil. Corc dərhal nəsə hoqqa çıxarmaq haqqında düşünməyə başladı.

– Nənənə də düz saat on birdə dərmanını verməyi unutma, – anası dedi. Sonra çıxaraq qapını arxasınca bağladı.

Pəncərənin yanındakı kürsüdə mürgüləyən nənə gözünü açaraq acıqla dedi:

– Eşitdin, Corc, anan nə dedi? Bax ha, dərmanımı verməyi unutma!

– Unutmaram, nənəcan, – Corc cavab verdi.

– Bir də heç olmasa, ömründə bir dəfə anan evdə olmayanda özünü yaxşı aparmağa çalış.

– Çalışaram, nənə, – Corc cavab verdi.

Corc dəhşətli dərəcədə darıxdırıcı həyat sürürdü. Oynamaq üçün onun heç kəsi yox idi: nə bacı-qardaşları, nə də dostları var idi. Çünki onların ferması – Corcun atası fermer idi – hər yerdən, hər şeydən çox uzaqda yerləşirdi. O, həyatı boyu donuzları, toyuqları, qoyunları

və inəkləri görməkdən bezmişdi. O ən çox nənəsi ilə - bu qoca kaftarla da bir damın altında yaşamaqdan təngə gəlmişdi. İndi isə üstəlik, onunla təkbaşına qalmışdı, ona baxması lazım idi. Bu da şənbə gününü keçirmək üçün heç də yaxşı variant deyildi.

– Əvvəla, mənə çay dəmləyə bilərsən. Necə olsa, bu da bir məşğuliyyətdir. Dəcəllik etmədən bir neçə dəqiqə dayanmağın özü də böyük bir faydadır.

– Yaxşı, nənə, – Corc dedi.

Corc nənəsinin varlığına tab gətirə bilmirdi, bir də axı onu nəyə görə sevməliydi? O, yalnız özünü düşünən qoca qarıdır. Onun solğun-qəhvəyi rəngdə dişləri, itin arxasına bənzəyən, büzüşmüş dairə kimi kiçik ağzı var idi.

– Bu gün çayına neçə qaşıq şəkər qoyum, nənə? – Corc soruşdu.

– Bir qaşıq, – o cavab verdi. – Və südsüz.

Adətən, nənələrin böyük əksəriyyəti çox mülayim, qayğıkeş və mehriban olurlar. Yalnız Corcun nənəsindən başqa. O, bütün günü səhərdən axşama qədər pəncərə önündəki kürsüsündə oturaraq deyinirdi, acıqlanırdı, söylənirdi və mızıldanırdı. Bir dəfə də olsun, hətta əhvalının ən yaxşı vaxtlarında belə Corca gülümsəyib soruşmayıb: "Hə, necəsən?", yaxud "Gəl, səninlə filan oyunu oynayaq", yaxud "Bu gün məktəbdə gününü necə keçirmisən?"

Görünür, o özündən başqa heç kimlə maraqlanmırdı. Bədbəxt qoca qarı.

Corc mətbəxə gedib nənəsinə çay hazırladı. Bir qaşıq şəkərlə və südsüz. O, diqqətlə şəkəri qaşıqla qarışdıraraq, fincanı qonaq otağına apardı. Nənə bir qurtum içdi.

– Şirin deyil, – dedi. – Bir az da şəkər əlavə et.

Corc fincanı yenidən mətbəxə aparıb bir qaşıq da şəkər əlavə etdi. Yenə qarışdıraraq, ehtiyatla nənəsinə apardı.

– Bəs nəlbəki hanı? – o soruşdu. – Nəlbəki olmasa, içməyəcəyəm.



Corc ona nəlbəkini də gətirdi.

– Qaşığı da gətir, daha zəhmətdən keçib.

– Mən şəkəri qarışdırmışam, nənə. Yaxşı qarışdırmışam.

– Mən yenə də özüm necə qarışdıracağıma qərar verərəm, çox sağ ol, – o cavab verdi. – Qaşığı gətir!

Corc qaşığı da gətirdi.

Valideynləri evdə olanda nənəsi onunla bu cür rəftar etmirdi. O, yalnız Corc onun tam ixtiyarında olanda onu incitməyə başlayırdı.

– Bilirsən, sənin bəlan nədədir? – o, fincanın üzərindən Corca baxaraq və gözlərini iyrənc şəkildə oynadaraq soruşdu. – Sən həddindən artıq tez böyüyürsən. Oğlan uşağı əgər həddindən artıq tez böyüyürsə, o, mütləq tənbəl və axmaq olur.

– Amma nənə, mən axı öz-özümə böyüyürəm. Mən bunun qarşısını ala bilmərəm.

– Lap gözəl bilərsən, – o etiraz etdi. – Böyümək, sadəcə, uşaqcasına axmaq bir vərdişdir.

– Amma insan böyüməlidir axı, nənə. Böyüməsə, o, heç vaxt yetkin insan ola bilməz.

– Bu, cəfəngiyyatdır, – o dedi. – Bir mənə bax. Mən böyüyürəm? Böyüyürəm, yoxsa yox, de görüm? Bax belə.

– Amma sən də axı nə vaxtsa böyümüsən, elə deyil, nənə?

– Çox cüzi, istisna olmaqla, – qarı cavab verdi. – Hələ körpə ikən tənbəllik, itaətsizlik və tamahkarlıq, diqqətsizlik və axmaqlıq kimi digər pis uşaqlıq vərdişləri ilə birlikdə ondan imtina etdim. Sən isə bildiyimə görə, bunların heç birindən imtina edə bilməmisən.

– Mən axı hələ kiçiyəm, nənə.

– Sənin artıq səkkiz yaşın var, – o əlavə etdi. Bu yaşda bundan da ağıllı ola bilərdin. Tezliklə böyüməyi dayandırmasan, artıq çox gec olacaq.

– Nə üçün çox gec olacaq, nənə?

– Axı bu, biabırçılıqdır, – o, dediyindən dönmürdü. – Bir bax, sənin boyun artıq mənimkinə çatıb.

Corc diqqətlə nənəsinə baxdı. O, sözün əsl mənasında bapbalaca idi. Ayaqları o qədər qısa idi ki, kürsüsünün qarşısına skamya qoymalı olurdular. Başı isə kürsünün arxasının yarısına kimi çatırdı.

– Atam isə deyir ki, kişi uzunboylu olsa yaxşıdır, – Corc dedi.

– Sən atana qulaq asma, – nənəsi dedi. – Sən mənə qulaq as.

– Bəs mən böyüməyimi necə dayandıra bilərəm? – Corc soruşdu.

– Şokoladı az yemək lazımdır, – nənəsi cavab verdi.

– Şokoladdan böyüyürlər ki?

– Hə, özü də lazım olmayan tərəfə, – O, üz-gözünü turşutdu. – Aşağı deyil, yuxarı.

Nənə qarşısında dayanan oğlanı qəzəbli baxışlarıyla süzərək, fincanından daha bir neçə qurtum çay içdi.

– Heç vaxt yuxarıya doğru böyümə, – o dedi. – Yalnız aşağı.

– Yaxşı, nənə.

– Şokoladı isə tərgid. Kələm ye.

– Kələm? Yoox, mən kələmi sevmirəm! – Corc dedi.